

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 156 (21.308)

*12 avqust 2015-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Cəlilabad rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Cəlilabad şəhərinin mərkəzindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Azərbaycan Prezidentinə abidənin ucaldığı Heydər Əliyev adına park haqqında məlumat verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Cəlilabad rayonuna səfəri çərçivəsində Heydər Əliyev Mərkəzinin açılışında iştirak edib.

* * *

Avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəlilabadda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş körpələr evi-uşaq bağçasının, Cəlilabad rayonunun Göytəpə şəhərinin mərkəzində, Göytəpə çayının sahilində inşa edilmiş Heydər Əliyev adına park-bulvarın, Alar-Təzəkənd-Üçtəpə-Əliqasımlı-Cəfərxanlı avtomobil yolunun açılışlarında iştirak edib, "Avanqard" MMC-nin Cəlilabad rayonundakı taxılçılıq təsərrüfatı ilə tanış olub.



## Dövlət qulluqçularının etik davranış qaydalarına həsr olunmuş seminar keçirilib



***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən Şahbuz rayonunda "Dövlət qulluqçularının etik davranış qaydaları" və "Dövlət orqanlarında sənədlərlə işin təşkili və dövlət qulluqçularının reyestrinin aparılması" mövzularında seminar keçirilib. Seminarı rayon İcra Hakimiyyəti başçısının müavini Mətanət Məmmədova açaraq tədbirin mahiyyətindən danışıb.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri Etibar Musayev və komissiyanın nümayəndəsi Arzuman İmanov çıxış edərək tədbir iştirakçılarına mövzu ilə bağlı ətraflı məlumat veriblər. Bildirilib ki, 31 may 2007-ci il tarixdə "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Qanun dövlət qulluqçuları üçün etik davranış qayda və prinsipləri, həmçinin onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən edir. Qanunun birinci maddəsində qeyd olunur ki, etik davranış qaydaları dövlət qulluqçusu statusuna malik olan bütün şəxslərə şamil edilir. Hər bir dövlət qulluqçusu qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış qaydalarını rəhbər tutaraq bu Qanunun müddəalarına əməl etməyə borcludur.

Qeyd olunub ki, şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə dövlət qulluqçuları öz vəzifə borclarını yerinə yetirməyə borcludurlar. Onlar bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdırlar. Dövlət qulluqçusu etik davranışı, peşəkar fəaliyyəti ilə dövlət orqanlarına hüquqi və fiziki şəxslərin inamını artırmalı və möhkəmləndirməli, dövlət qulluğu vəzifələrinin icrası ilə bir araya sığmayan, onun adına xələl gətirə biləcək, habelə dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir. Eyni zamanda dövlət qulluqçusu Azərbaycan Respublikasının, dövlət orqanının və dövlət qulluğunun nüfuzunu möhkəmləndirməyə, öz adını və şərəfini uca tutmağa borcludur. Dövlət qulluqçusu etik davranış qaydalarının onun tərəfindən pozulması nəticələrini aradan qaldırmağa, o cümlədən ictimai etimadın bərpası üçün tədbirlər görməyə borcludur. Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət qulluqçusu xidməti vəzifələrinin icrası ilə bağlı fiziki şəxslərin, habelə digər dövlət qulluqçularının şəxsi həyatı, şərəf və ləyaqəti barədə ona məlum olmuş məlumatların konfidensiallığını təmin etməlidir.

Vurğulanıb ki, dövlət qulluqçusu bütün şəxslərə, o cümlədən birbaşa və tabeliyində olan şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olmalıdır. O, özünün və ya maraqlı şəxslərin mənafelərinin onun xidməti vəzifələrini yerinə yetirməsinə təsir etməsinə yol verməməli və bu cür təsir üçün şərait yaratmamalı, qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir. Etik davranış qaydalarının pozulması dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır. Dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətdə həyata keçirilir.

"Dövlət orqanlarında sənədlərlə işin təşkili və dövlət qulluqçularının reyestrinin aparılması" haqqında seminar iştirakçılarına məlumat verilərək bildirilib ki, dövlət qulluqçularının şəxsi işinin aparılması qaydaları, dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrdə kargüzarlığın aparılması, Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrinin aparılması qaydaları, dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi qaydaları, dövlət orqanları tərəfindən komissiyaya göndərilən sənədlərdə daha çox rast gəlinən nöqsanlar və onların aradan qaldırılması yolları qanunlarla tənzimlənməlidir.

Tədbirin sonunda seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

*Avqustun 11-də Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Biznes Mərkəzində "Sahibkarlıq fəaliyyətini öyrənirik" mövzusunda kursa başlanılıb.*

## Sahibkarlığa yeni başlamaq istəyənlər üçün kurs təşkil edilib



Beş gün davam edəcək kursda sahibkarlığa yeni başlamaq istəyən şəxslər üçün müvafiq tədris proqramlarının keçirilməsi, həmçinin məsləhət xidmətlərinin göstərilməsi nəzərdə tutulub.

Dünən keçirilən kursda Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin şöbə müdiri Mircavid Tağızadə "Sahibkarlığın mahiyyəti, sahibkarlıq fəaliyyəti" mövzusunda çıxış edərək ölkəmizdə sahibkarlığın inkişafına yaradılmış şəraitdən söhbət açıb, bu sahəyə göstərilən dövlət dəstəyindən bəhs edib. Bildirilib ki, hazırda sahibkarlığın inkişafı üçün muxtar respublikada münbit şərait yaradılıb. Özəl sektorun inkişafı üçün hərtərəfli dövlət dəstəyinin göstərilməsi nəticəsində muxtar respublikada çoxsaylı sahibkarlıq subyektlərinin yaradılmasına nail olunub. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikada ümumi daxili məhsulda özəl bölmənin payı 87 faizi ötüb. Mircavid Tağızadə bu sahədə əldə olunmuş uğurların həm də məşğulluq məsələlərinin həll olunmasında mühüm əhəmiyyətə malik olduğunu qeyd edib. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiq olunub. Proqramın icrasına uyğun olaraq, "Sahibkarlıq fəaliyyətini öyrənirik" mövzusunda təşkil olunmuş kursda əsas məqsəd muxtar respublikada sahibkarlığa yeni başlamaq istəyən şəxslər üçün müvafiq tədris proqramı üzrə seminarların keçirilməsindən və məsləhət xidmətlərinin göstərilməsindən ibarətdir.

Qeyd edək ki, 5 gün davam edəcək kursda "Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlər üçün layihələrin hazırlanması, kreditlərin verilməsi və digər dövlət dəstəyi", "Sahibkarlar və dövlət nəzarət orqanlarının qarşılıqlı fəaliyyəti", "Sahibkarlıq fəaliyyətində vergi və digər ödənişlər haqqında" və "Sahibkarlıq fəaliyyətində ixtisaslı kadrların xüsusiyyəti, menecment və marketinqin rolu" mövzularında seminarlar keçiriləcək.

**Xəbərlər şöbəsi**

## Yeni texnologiyaların tətbiqinə diqqət artırılıb

Muxtar respublikada abonentlərə keyfiyyətli rabitə xidmətinin göstərilməsi üçün iyul ayında da bir sıra işlər görülmüşdür. Bu dövrdə 285 yeni telefon nömrəsi istismara verilmişdir. Həmçinin Şahbuz rayonunda 8808 metr məsafədə Mahmudoba-Kolanı və Ordubad rayonunda 8300 metrlik Parağa-Tivi kəndlərarası fiber-optik kabel xətlərinin tikintisi başa çatdırılmışdır.

Ötən ay Naxtel baza stansiyalarında 4G şəbəkəsinin qurulması işi də davam etdirilmiş, Naxçıvan şəhərində 10, Şərur rayonunun İbadulla, Babək rayonunun Nehrəm, Cəhri, Nəzərabad kəndlərində, eləcə də Culfa, Ordubad və Şahbuz rayonları ərazisində yeni 4G baza stansiyaları quraraq istifadəyə verilmişdir.

"Elektron hökumət" portalının fəaliyyəti də diqqət mərkəzində saxlanılmış, Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin elektron xidmətlərində müvafiq dəyişikliklər edilmişdir. Bundan başqa, Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş sərbəst güləş üzrə beynəlxalq yarışın "İdman Azərbaycan" və "Kanal 35" televiziyaları ilə yanaşı, ***www.nakhchivan.az*** portalında da canlı yayımı təşkil edilmişdir.

İyul ayında internet xidmətlərinin də səviyyəsi yüksəldilmiş, daxil olan internet trafikinin həcmi 10 Gb/s-dək artırılmışdır. Bu sahədə görülən işlər internet istifadəçilərinin sayına da öz təsirini göstərmiş, ötən ay 435 yeni abunəçi genişzolaqlı ADSL texnologiyasından istifadə etməyə başlamışdır. Bu dövrdə Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində kompüter kursları üzrə 37 dinləyici təhsilini davam etdirmişdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

***Bu gün təbii qazla təminat muxtar respublikanın bütün yaşayış məntəqələrini və istehsal sahələrini əhatə edir, mavi yanacağın mövsümdən asılı olmayaraq, fasiləsiz nəqli təmin edilir.***

## İyul ayında muxtar respublikada abonentlər dayanıqlı mavi yanacaqla təmin olunub

"Naxçıvanqaz" İstehsalat Birliyinin kollektivi iyul ayında da qarşıda duran vəzifələri layiqincə yerinə yetirmiş, istehlakçılar tərəfindən daxil olan müraciətlərə əsasən, 97 yeni fərdi ev və müxtəlif təyinatlı obyekt qazlaşdırılmışdır. Təhlükəsizliyin təmin olunması məqsədilə istismarda olan magistral, daşıyıcı, paylayıcı qaz kəmərlərinə və onların üzərində olan kranlara baxış keçirilmiş, 1999 sızma aşkarlanaraq aradan qaldırılmış və təbii qazın uyğun texnoloji rejimdə nəqli təmin olunmuşdur.

İyul ayında abonentlər tərəfindən daxil olan 1658 çağırışa operativ reaksiya verilmiş və müvafiq tədbirlər görülmüşdür. Bu dövrdə 111 yararsız qaz sayğacı istismardan çıxarılmış və yenisi ilə əvəz edilmişdir. Qaz nəqlinin və istifadə olunan mavi yanacağın dəyərinin toplanmasında mütərəqqi üsulların tətbiqi də diqqət mərkəzində saxlanılır. Bu məqsədlə muxtar respublika ərazisində smartkarttipli sayğacların istifadəsinə başlanılmış və ilk olaraq Naxçıvan şəhərində 283 evdə bu tip sayğac quraşdırılmışdır.

Şəhər, rayon qaz istismarı idarələrinin əməkdaşlarının Naxçıvan Regional Peşə Tədris Mərkəzində Qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər peşəsi üzrə kurslara cəlb olunması da davam etdirilmişdir. Həmçinin ötən ay mütəmadi reydlər keçirilmiş, əhali arasında təbii qazdan istifadə və təhlükəsizlik qaydaları barədə maarifləndirmə işləri aparılmışdır.

***"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti***

*İcmal*

# Muxtar respublikada bütün sahələri əhatə edən inkişaf tendensiyası yüksələn xətt üzrə davam edir

## *Ötən ay biz bir daha bunun şahidi olduq*

*Uzun illərdir, blokada vəziyyətində yaşayan Naxçıvan Muxtar Respublikası bu gün özünün yüksəliş dövrünü yaşayır. Dünyada ikinci bir nümunəsi olmayan belə bir möhtəşəm uğura, şübhəsiz ki, ulu öndər Heydər Əliyevin elmi əsaslara söykənən strateji inkişaf konsepsiyasının reallaşdırılması, onun yolunun uğurla davam etdirilməsi nəticəsində nail olunmuşdur. Bəli, məhz elmi əsaslara söykənən bu siyasət bizi uğurlu gələcəyə aparır. Elmi əsasa söykənməyən heç bir işin gələcəyi yoxdur və ya elmi əsası olmayan istənilən yol, nəticə etibarilə, iflasa məhkumdur. Məhz buna görə də dahi şəxsiyyətin yolunu davam etdirən sədaqətli insanlar bütün sahələrlə yanaşı, elmin inkişafına, insan kapitalının, elmi potensialın formalaşmasına da xüsusi diqqət yetirirlər. İyulun 6-da Naxçıvan şəhərində Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin iclasının keçirilməsi Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında elmin inkişafına göstərilən qayğının daha bir ifadəsi idi.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov elmin inkişafının əhəmiyyətindən danışaraq demişdir: ***"Elmi tədqiqatlar o vaxt ideyadan əməli işə keçir ki, onun reallaşmasına şərait yaradılsın. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında elm infrastrukturu tamamilə yenidən qurulub. Azərbaycan elmi qabaqcıl dünya təcrübəsi əsas götürülərək inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikasında da elmin iqtisadiyyata tətbiqi dayanıqlı inkişafın əsas şərtidir. Artıq muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar ciddi elmi-nəzəri əsaslara söykənir".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkil etdiyi "Elmdən təcrübəyə" sərgisində muxtar respublikamızda elmlə təcrübənin vəhdəti bir daha diqqətləri cəlb etdi.

Xatırlayırıq ki, bir vaxtlar iqtisadi baxımdan çətin vəziyyətdə olan ölkəmizdə, o cümlədən muxtar respublikamızda müşahidə olunan "beyin axını" bir çoxlarını ciddi narahat edirdi. 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin ali hakimiyyətə qayıdışı, 1995-ci ildə isə muxtar respublikada elmin himayəçisi olan cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi elmimizi məhvolma təhlükəsindən xilas etdi və elmin inkişafı yeni mərhələyə qalxdı. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin təsis edilməsindən sonra muxtar respublikada elmi-tədqiqat işləri gücləndirildi, Naxçıvanın tarixinin, arxeologiyasının, etnoqrafiyasının və təbii sərvətlərinin öyrənilməsi ilə bağlı tədqiqatlar aparıldı. Qürurla deyə bilərik ki, bu gün Azərbaycanın elmi potensialının böyük bir hissəsi Naxçıvanda cəmləşib.

Naxçıvanın inkişafı bir tərəfdən alimlərin qarşısında böyük imkanlar açır, digər tərəfdən onların qarşısında yeni vəzifələr qoyur. Son illər AMEA Naxçıvan Bölməsinin maddi-texniki bazasının gücləndirilməsi, strukturunun, elmi prioritetlərinin müəyyənləşdirilməsi sahəsində də kompleks tədbirlər görülüb. Artıq bölmənin elmi nəticələrinin məhsulu olan akademik nəşrlər ölkəmizdə rəğbətlə qarşılanan qiymətli elmi əsərlərdir. Burada elmdən təcrübəyə istiqamətində görülən işlər bir nümunə gücündədir.

Muxtar respublikamızda elmin və təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir nümunəsi Naxçıvan Dövlət Universitetinin elektron təhsil sisteminin və rəqəmsal multimedia infrastrukturunun ən müasir tələblər səviyyəsində qurulmasıdır. Belə ki, ali təhsil ocağında informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətləri tətbiq olunub, yüksək tələblərə cavab verən elektron idarəetmə və tədris sistemi yaradılıb.

İyulun 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində "Elektron Naxçıvan-10: təhsil prosesinin təkmilləşdirilməsində informasiya-kommunikasiya texnologiyalarının rolu" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçıları universitetdə yaradılan şəraitlə maraqla tanış oldular və muxtar respublikada kadr potensialının formalaşdığı ali təhsil ocaqlarına göstərilən xüsusi diqqəti bir daha alqışladılar.

Naxçıvan Dövlət Universitetində keçirilən "Elektron Naxçıvan-10" beynəlxalq konfransı Naxçıvan Muxtar Respublikasında, ümumilikdə, ölkəmizdə ali təhsil sisteminin informasiyalaşdırılması sahəsində atılan mühüm addımdır. Bu mənada "Elektron Naxçıvan" konfransları informasiya-kommunikasiya texnologiyalarının inkişafının Naxçıvan modeli kimi qəbul olunur.

Gələcəkdə də bu işlər davam etdiriləcəkdir. Çünki vətənsevər və fədakar insanlar gələcəyimizin, inkişafın birbaşa elmin inkişafı ilə sıx bağlı olduğu həqiqətini xüsusi qeyd edirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri beynəlxalq konfransdakı çıxışında bu barədə danışaraq deyib: ***"Hər dövrün öz qanunauyğunluqları var. Buna uyğun olaraq ölkələrin inkişaf kriteriyaları müəyyənləşir. Bu gün hələ böyük əhali potensialına və orduya malik olan ölkələri güclü ölkə hesab etmirlər. O ölkə güclüdür ki, elm tutumlu qabaqcıl texnologiya və böyük informasiya çəkisinə malik olsun. İndi dünyanı informasiya texnologiyaları olmadan təsəvvür etmək çətindir. İnformasiya-kommunikasiya texnologiyaları insanların gündəlik həyatına nüfuz etmiş, elmin və təhsilin inkişafında, müasir iqtisadi sistemin formalaşdırılmasında mühüm faktora çevrilmişdir".***

Gənclərin peşəkar kadr kimi formalaşması ilə yanaşı, onların sağlamlığının qorunması da mühüm əhəmiyyətə malikdir. Çünki sağlamlıq insanın həyatını, fəaliyyətini istiqamətləndirən əsas amillərdən biridir. Bu gün muxtar respublikada yaradılan şəraitin nəticəsində 38 min 586 nəfər bədən tərbiyəsi və idmanla məşğul olur. Muxtar respublika idmançıları 2015-ci ilin ötən dövrü ərzində Azərbaycan üzrə birinciliklərdə 30, dünya birinciliyində 8, beynəlxalq turnirlərdə 12 medal qazanıblar. İdman sahəsində əldə edilən ən böyük uğur isə 12-28 iyun tarixlərində Bakı şəhərində keçirilmiş birinci Avropa Oyunlarında muxtar respublika boks məktəbinin yetirməsi, Avropa çempionu Tayfur Əliyevin bürünc mükafata layiq görülməsidir.

İyulun 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində birinci Avropa Oyunlarının bürünc mükafatçısı ilə görüş keçirilib. Ali Məclisin Sədri birinci Avropa Oyunlarındakı nailiyyətlərinə görə Tayfur Əliyevə "Naxçıvan Muxtar Respublikasının 85 illiyi" yubiley qızıl medalını, onun məşqçisi Məmmədəli Eyvazova qızıl qol saatı və muxtar respublikada boks idmanının inkişafındakı fəaliyyətinə görə Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının sədri Məhərrəm Talıbova Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanını təqdim edib.

Bu gün cəmiyyətin və onun aparıcı qüvvəsi olan gənclərin zərərli təsirlərdən qorunması məsələsi də daim diqqətdə saxlanılır. Dünyanın bütün ölkələrində aktual olan narkomaniyaya qarşı sistemli mübarizə muxtar respublikada uğurla aparılır və yüksək nəticələr əldə olunur. İyulun 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyasının 2015-ci ilin 6 ayında gördüyü işlər barədə müşavirə keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri müşavirədə çıxış edərək deyib ki, narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq mənəvi və əxlaqi dəyərlərə böyük zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir edən, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan amildir. Ona görə də bu məsələ bu gün bütün dünyanı düşündürür, təsirli tədbirlər görülməsini tələb edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1996-cı il 30 avqust tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyası yaradılıb. Komissiyanın vəzifəsi narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etməkdən və bu sahədə fəaliyyəti əlaqələndirməkdən ibarətdir. 2006-cı ildə Komissiyanın fəaliyyətinə yenidən baxılıb və Ali Məclis Sədri yanında müşavirə keçirilərək narkotiklərlə mübarizəni daha da gücləndirmək məqsədilə hər bir orqan qarşısında konkret vəzifələr qoyulub. Bu tədbirlər öz nəticəsini verib, muxtar respublikada narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində sistemli iş aparılıb.

Tarixini bilməyən, keçmişinə hörmətlə yanaşmayan xalqlar hansı inkişaf səviyyəsinə çatsa da, onun gələcəyi daim təhlükədədir. Çünki, necə deyərlər, keçmiş gələcəyin müəllimi, zəmanətidir. Bu gün muxtar respublikamızda tarixi keçmişimizin öyrənilməsinə, xalqımızın qədim mədəniyyətinin, qəhrəmanlıq və mübarizə tarixinin izlərini özündə yaşadan qala və istehkamların bərpasına xüsusi diqqət yetirilir. Bu sahədə görülən işlərin davamı olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən, "Əlincəqala" tarixi abidəsində bərpa işləri aparılır. İyulun 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Əlincəqalaya gəlib, burada həyata keçirilən bərpa işləri ilə maraqlanıb. İyulun 27-də isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Şərur rayonundakı Qız qalası qədim yaşayış yerinə gəlib, Azərbaycan-Amerika Birləşmiş Ştatları arxeoloji ekspedisiyası tərəfindən aparılan tədqiqat işləri ilə maraqlanıb.

İyulun 21-də dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyası keçirilib. Sessiyada çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikamızın sürətli sosial-iqtisadi inkişafından danışaraq deyib: ***"Azərbaycanın digər iqtisadi rayonları kimi, Naxçıvan Muxtar Respublikası da özünün quruculuq və inkişaf dövrünü yaşayır. Hazırda sosial-iqtisadi həyatın elə bir sahəsi yoxdur ki, orada quruculuq tədbirləri getməsin.***

***Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarına vaxtında əməl olunması, iqtisadi və sosial sahədə qarşıya qoyulan vəzifə və tapşırıqların yerinə yetirilməsi yeni istehsal sahələrinin və iş yerlərinin açılmasına, əhali məşğulluğunun yüksəldilməsinə, müasir infrastrukturun yaradılmasına səbəb olmuşdur. Cari ilin ilk yarısında sənaye, kənd təsərrüfatı, tikinti kimi maddi istehsal sahələrində, eləcə də xidmət sektorunda qeydə alınan göstəricilər deməyə əsas verir ki, muxtar respublikamız 2015-ci ili də yüksək nəticələrlə başa vuracaqdır".***

Faktlar muxtar respublikamızın bütün sahələr üzrə sürətli inkişafını özündə əks etdirir. Belə ki, cari ilin 6 ayı ərzində muxtar respublikada tikinti-quraşdırma işlərinə sərf olunmuş investisiyaların həcmi 2,7 faiz artıb, tikinti sahəsində 11 min nəfərə yaxın işçi çalışıb. Bu dövrdə muxtar respublikada 189 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilib.

2015-ci ilin ötən dövründə 439 sənaye müəssisəsi fəaliyyət göstərib. Bunun nəticəsidir ki, 2015-ci ilin birinci yarımilində 491 milyon 381 min manatlıq və ya 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çox sənaye məhsulu istehsal olunub. Cari ilin müvafiq dövründə kənd təsərrüfatı məhsulları istehsalı və emal sənayesini əhatə etməklə, 28 istehsal və xidmət sahəsi istifadəyə verilib, muxtar respublikada 336 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi təmin edilib. 2015-ci ildə sahibkarlığın inkişafı iqtisadi siyasətin əsas istiqamətlərindən biri olub, ümumi daxili məhsulda özəl bölmənin payı 87 faizi ötüb.

İyulun 22-də isə Azərbaycan milli mətbuatının 140 illik yubileyi təntənəli şəkildə qeyd olunub.

Naxçıvan Muxtar Respublikasının inkişafının qarantı olan hərbi təhlükəsizlik çox yüksək səviyyədə təmin olunub. Bu gün muxtar respublikada müasir dünya orduları səviyyəsində yaradılan Əlahiddə Ümumqoşun Ordu əməliyyat-taktiki baxımdan yüksək döyüş hazırlığına malikdir və ordumuz hakim yüksəkliklərdə etibarlı müdafiə sistemi qurub. Burada xidmət üçün zəruri olan hər bir şərait yaradılıb. Postlar ərazinin strateji əhəmiyyəti nəzərə alınaraq yerləşdirilib, lazımi yerlərdə müxtəlif mühəndis-istehkam qurğuları və maneələr yaradılıb, ön xəttin müdafiə qüdrəti xeyli gücləndirilib. Dayaq məntəqələri və postlar arasında yol və dayanıqlı rabitə əlaqələri yaradılıb, onların hər biri müasir döyüş texnikaları, artilleriya qurğuları və atıcı silahlarla təmin olunub. Müşahidə zonasının daimi nəzarətdə saxlanması təmin edilib. Müasir müşahidə cihazları vasitəsi ilə qarşı tərəfin mövqeləri istənilən hava şəraitində müşahidə olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri dəfələrlə muxtar respublikanın hakim yüksəkliklərində xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə, buradakı vəziyyətlə maraqlanıb. Ötən ayın 30-da Ali Məclisin Sədri növbəti dəfə Batabat bölgəsindəki hərbi hissələrdə xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə maraqlanıb, döyüş bölgəsində xidmət edən əsgərlərlə görüşüb.

***"Vətən o zaman Vətən olur ki, o həm qorunur, həm də Vətən torpağından səmərəli istifadə olunur"***, – deyən Ali Məclisin Sədri bildirib ki, Vətən torpağının qorunması, eyni zamanda torpaqlardan səmərəli istifadə olunması bu gün ölkəmizin vətəndaşlarının və ordunun üzərinə düşən vəzifələrdir. Çünki sərhədlərimiz qorunursa, insanlar da öz vəzifələrini, işlərini rahat yerinə yetirə biləcəklər, öz zəhmətləri ilə ölkəmizin inkişafına töhfə verəcəklər. Əsgərlər xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə bu ərazilərdən səmərəli istifadə olunur. Xidmət olunan ərazilərdə heyvandarlar və arıçılar üçün əlverişli şərait vardır. Onlar burada rahat və təhlükəsiz şəkildə təsərrüfatları ilə məşğul olurlar. Birgə fəaliyyətin nəticəsi olaraq isə ölkəmiz abadlaşır, inkişaf edir.

Sonra Ali Məclisin Sədri əsgərlərlə xatirə şəkli çəkdirib. Gətirilmiş müxtəlif ərzaq məhsulları anbarlara təhvil verilib.

***Son illər hədər yerə Naxçıvan Muxtar Respublikasını Cənubi Qafqaz ölkələri üçün inkişaf modeli hesab edilən Azərbaycan Respublikasının parlayan ulduzu adlandırmırlar. Çünki qədim diyarımız, həqiqətən də, tarixinin qızıl dövrünü yaşayır. Naxçıvanda əldə olunan nailiyyətlər, tətbiq edilən yeniliklər, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, elmə, təhsilə, mədəniyyətin inkişafına göstərilən xüsusi diqqət və qayğı, aparılan genişmiqyaslı islahatlar, müasir dövrün tələblərinə həmahəng olan məqsədyönlü işlər uğurların zəmanətinə çevrilib. Ötən ayın nəticələrinə diqqət yetirdikdə bir daha əminlik yaranır ki, muxtar respublikamızda əldə olunmuş inkişaf göstəriciləri bundan sonrakı dövrdə də növbəti nailiyyətlər üçün ciddi əsaslar yaradır.***

✍ **Rauf ƏLİYEV**




12 avqust Beynəlxalq Gənclər Günüdür

# Sağlam gənclik işıqlı gələcəyin təminatıdır

*1998-ci il avqustun 12-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində gənclərlə iş sahəsində keçirilən beynəlxalq konfransda hər il avqustun 12-nin dünyada “Gənclər Günü” kimi qeyd olunması qərara alınmışdır. Həmin tarixdən etibarən Beynəlxalq Gənclər Günü Azərbaycanda da qeyd olunur.*

Ölkəmizdə gənclər siyasətinin əsasını ümummilli liderimiz Heydər Əliyev qoymuşdur. Ulu öndər sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi kimi daim diqqət mərkəzində saxlamış, gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin olunmasını vacib məsələ elan etmişdir. Hələ ötən əsrin 70-ci illərindən sağlam gənc nəslin yetişdirilməsini diqqətdə saxlayan dahi şəxsiyyət onların hərtərəfli təhsil alması, hərbi sahədə ixtisaslı kadr kimi yetişməsi qayğısına qalmışdır. Bu dövrdə şəhər, rayon və kəndlərdə məktəb binaları, idman obyektləri tikilmiş, gənclərin asudə vaxtının səmərəli təşkili və milli ruhda böyüdülməsi sahəsində ardıcıl tədbirlər görülmüşdür.

Ölkəmiz müstəqillik qazandıqdan və ulu öndər xalqın təkidli tələbi ilə yenidən ali hakimiyyətə qayıtdıqdan sonra isə Azərbaycanda dövlət gənclər siyasətinin əsası qoyulmuşdur. 1994-cü ildə ölkəmizdə Gənclər və İdman Nazirliyi yaradılmış, 1996-cı il fevralın 2-də Azərbaycan Gənclərinin I Forumu keçirilmişdir. ***“Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün Vətəni sevməlidir, ölkəni sevməlidir, torpağı sevməlidir, xalqımızı sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir. Bunları sevə bilməyən adam, onları özü üçün mənəvi əsas edə bilməyən gənc həyatda özünə yer tapa bilməyəcəkdir və şübhəsiz ki, bizim ictimai-siyasi prosesdə, müstəqil Azərbaycanın inkişafında lazımi qədər iştirak edə bilməyəcəkdir”***, – deyən ulu öndərimizin 1997-ci ildə imzaladığı sərəncamla fevralın 2-si Azərbaycanda Gənclər Günü elan edilmişdir. Ümummilli liderimiz bu sahənin hüquqi bazasının yaradılması, gənclərlə işin daha da təkmilləşdirilməsi məsələlərini də diqqət mərkəzində saxlamış, ölkənin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün lazımi şərait yaratmış, 2002-ci ildə “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət gənclər siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının sərəncamları ilə “Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər)”, “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın, “Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramının (2006-2010-cu illər)” və “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı”nın təsdiq edilməsi, 2007-ci ilin ölkəmizdə “Gənclər ili” elan olunması, Azərbaycan gənclərinin növbəti forumlarının keçirilməsi bu sahədə görülən işlərin əhatə dairəsini daha da genişləndirmişdir.

Bu gün ölkəmizdə təhsil sahəsində aparılan islahatlar gənclər siyasətinin ən vacib istiqamətlərindən birini təşkil edir. Azərbaycanın müxtəlif bölgələrində müasir standartlara cavab verən məktəb binaları tikilib istifadəyə verilir, orta və ali təhsil ocaqları müasir avadanlıqlarla təchiz edilir. Elmi müəssisələrin, məktəblərin kompüterləşdirilməsi, gənc nəslin virtual dünyaya çıxışının təmin edilməsi, onların informasiya texnologiyaları ilə işləmək vərdişlərinə yiyələnmələri üçün atılan məqsədyönlü addımlar Azərbaycanda insan kapitalının inkişafına xidmət edir. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı” da bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması da vacib şərtdir. Dövlət başçısının ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilmişdir. Bu il ölkəmizin tarixdə ilk dəfə keçirilmiş Avropa Oyunlarına ev sahibliyi etməsi və idmançılarımızın olimpiada və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev gənclərin cəmiyyət həyatındakı rolunu yüksək qiymətləndirərək demişdir: ***“Bugünkü gənc sabah ölkəmizi idarə edəcəkdir. Bugünkü gənclər bir neçə ildən sonra Azərbaycanın bütün idarəetmə sistemində əsas rol oynayacaqlar. Ona görə gəncləri inamla qabağa çəkmək lazımdır, məsul vəzifələrə təyin etmək lazımdır ki, onlar işləsinlər, təcrübə əldə etsinlər və beləliklə, gələcək fəaliyyət üçün hazır olsunlar”.***

Bu gün Naxçıvan Muxtar Respublikasında da dövlət gənclər siyasəti uğurla həyata keçirilir, gənc nəslin təhsili, milli ruhda tərbiyəsi diqqət mərkəzində saxlanılır. Gənclərin ictimai-siyasi, iqtisadi və mədəni sahələrdə fəal iştirakı, sosial problemlərinin həlli, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, bütövlükdə muxtar respublikada gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərin əsasını təşkil edir. Son illər muxtar respublikada Gənclər Mərkəzi, kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, müasir məktəb binaları, olimpiya-idman kompleksləri, idman mərkəzləri və digər obyektlər tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir.

Muxtar respublikada gənclərin yaradıcılıq potensialının üzə çıxarılması da daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı” bu baxımdan mühüm əhəmiyyətə malikdir. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli Fərmanı muxtar respublikada gənclərə göstərilən yüksək diqqət və qayğının daha bir ifadəsidir. Fərmana əsasən, Naxçıvan Muxtar Respublikası gənc istedadlarının “Qızıl kitabı” təsis olunmuş, kitaba adları yazılmış gənc istedadlar üçün təqaüdün verilməsi qaydaları təsdiq edilmişdir. Dövlət gənclər siyasətinin tərkib hissəsi kimi Ali Məclis Sədrinin 2012-ci il 29 mart tarixli Fərmanı ilə muxtar respublikada Gənclər Fondu yaradılmış, 2014-cü ilin aprel ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan şəhərində Gənclər Mərkəzi istifadəyə verilmiş, fondun fəaliyyəti təmin olunmuşdur. Bütün bunlar gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov gənc nəslin əsl vətəndaş kimi yetişdirilməsi zərurətini qeyd edərək demişdir: ***“Biz gələcəyimizin formalaşması qayğısına bu gündən qalmalıyıq. Muxtar respublikamızın gələcəyi bugünkü gəncliyin təhsilə nə dərəcədə yiyələnməsindən, tariximizi, dilimizi, adət-ənənələrimizi necə öyrənməsindən, milli dəyərlərimizi hansı səviyyədə mənimsəməsindən, əsl vətəndaş kimi formalaşmasından asılıdır. Gənc nəsil vətənpərvərlik, Azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tarixi-mədəni irsimizə, milli və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunmalı, onlar öz intellektual və yaradıcı potensiallarını müstəqil Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafına sərf etməlidirlər”.***

Son illər muxtar respublikanın şəhər və rayonlarında olimpiya-idman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman və şahmat məktəblərinin, orta məktəblərdə idman zallarının və açıq idman qurğularının istifadəyə verilməsi gənc nəslin fiziki sağlamlığının qorunması və kütləvi bədən tərbiyəsinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Bütün bu imkanlardan istifadə edən gənclərimiz idman sahəsində də uğurla iştirak edir, muxtar respublikanı ölkə və dünya miqyasında keçirilən idman yarışlarında və çempionatlarda layiqincə təmsil edirlər.

Gənclərin asudə vaxtlarının səmərəli təşkili də dövlət gənclər siyasətinin mühüm tərkib hissəsidir. Muxtar respublikada bu sahədə mühüm tədbirlər həyata keçirilir, gənclərin mənalı istirahəti təmin edilir. Ağbulaq İstirahət Mərkəzində gənclərin yay məktəblərinin keçirilməsi bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Yay tətilini təbiət qoynunda keçirən gənclər mənalı istirahətlə yanaşı, muxtar respublikanın təbiətini, turizm imkanlarını tanımaq imkanı əldə edir, burada keçirilən yarış və intellektual müsabiqələrdə iştirak edərək asudə vaxtlarını səmərəli keçirirlər. Sağlamlıq imkanları məhdud gənclərin cəmiyyətə inteqrasiyası istiqamətində görülən işlər də bu sahədə atılan mühüm addımlardandır. 2014-cü ildə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi, audio və elektron kitabxanalar istifadəyə verilmiş, bu kateqoriyadan olan gənclərin təhsili və asudə vaxtlarının səmərəli təşkili təmin edilmişdir.

Muxtar respublikada gənc ailələrin mənzil şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzindədir. Son illər yeni yaşayış binalarının tikilib gənc ailələrə verilməsi bu sahədə görülən işlərin davamıdır. Mənzillərin güzəştli ipoteka kreditləri ilə təqdim olunması gənc ailələrə mənzil sahibi olmaq imkanı yaradır. Hazırda Naxçıvan şəhərində “Gənclər şəhərciyi”nin inşasının davam etdirilməsi bu sahədə görülən işlərin ardıcıl xarakter almasından xəbər verir.

*Bu gün Naxçıvan Muxtar Respublikasında gənclər milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunur, yeni ideyaların təşəbbüskarı və dövlət idarəçiliyində aparıcı qüvvə kimi formalaşır, idman, elm, mədəniyyət, incəsənət və digər sahələrdə böyük nailiyyətlər əldə edirlər. Ən əsası isə muxtar respublika gəncləri dövlətçilik ənənələrini daim uca tutur, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət ruhunda böyüyürlər.*

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

## Prokurorluq orqanları hüquqi-maarifləndirmə tədbirlərini davam etdirir

Culfa Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Bənəniyar kəndində “Vərəsəlik və mirasdan məcburi pay almaq hüququ”, həmçinin “Valideynlərin hüquq və vəzifələri, valideyn məsuliyyəti” mövzusuna həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Culfa rayon prokuroru, baş ədliyyə müşaviri Əli Adıgözəlov “Vərəsəlik və mirasdan məcburi pay almaq hüququ” mövzusunda məruzə ilə çıxış edib. Bildirilib ki, vərəsəlik mülki hüququn ən mürəkkəb institutlarından biri olaraq bütün dövrlərdə olduğu kimi, indi də böyük əhəmiyyət kəsb edir. Vərəsəlik hüququ Azərbaycan Respublikası Mülki Məcəlləsinin onuncu bölməsini, 62-74-cü fəsillərini və 1133-1325-ci maddələrini əhatə edir. Əli Adıgözəlov vərəsəlik hüququ və bu hüququn həyata keçirilməsi, ümumiyyətlə, mülki qanunvericiliklə müəyyən edilmiş qaydada bu hüquqlardan necə istifadə edilməsi haqqında sakinlərə məlumat verib.

Sonra Culfa rayon prokurorunun köməkçisi, III dərəcəli hüquqşünas Taryel İsmayılov çıxış edərək bildirib ki, valideynlərin hüquq və vəzifələri Azərbaycan Respublikası Ailə Məcəlləsinin 12-ci fəslində öz əksini tapıb. Valideynlər öz uşaqları barəsində bərabər hüquq və vəzifələrə malikdirlər.

Valideynlər uşaqlarının tərbiyəsinə, sağlamlığına və onların psixi, fiziki, mənəvi inkişafına görə məsuliyyət daşıyırlar.

Vurğulanıb ki, valideynlər uşaqlarının hüquq və mənafelərini müdafiə etməlidirlər. Valideynlərin və uşaqların maraqları arasında ziddiyyət yarandığı müəyyən olunarsa, müvafiq icra hakimiyyəti orqanı uşaqların hüquq və mənafeyini müdafiə üçün nümayəndə təyin etməlidir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Kərəm HƏSƏNOV**

## Kitabxana işi üzrə seminar keçirilmişdir



*Dünən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında kitabxana işi üzrə seminar keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən seminarı nazirliyin şöbə müdiri Həsən Kərimov açmışdır.*

Qeyd olunmuşdur ki, nazirlik tərəfindən keçirilən yoxlama və reydlərdə muxtar respublikanın kitabxanalarında kargüzarlıq işinin təşkilində də çatışmazlıqlara rast gəlinmişdir. Seminarın məqsədi bu nöqsan və çatışmazlıqların tezliklə aradan qaldırılmasına əməli və metodik köməklik göstərməkdən ibarətdir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sektor müdiri İman Alırzayev “Kargüzarlıq işinin ümumi qaydaları” mövzusunda çıxış edərək bildirmişdir ki, sənədlərin qəbulu, göndərilməsi, icra edilməsi, icraçıya çatdırılması, icraya nəzarət, daxil olan sənədlərin qeydə alınması, sənədlərin, məktubların hazırlanması və tərtibi, əmrlərin hazırlanması zamanı kargüzarlıq işinin qaydalarına riayət edilməlidir.

Çıxışda bu işlərin ümumi qaydaları haqqında ətraflı məlumat verilmişdir.

Nazirliyin əməkdaşı Cəfər Əsədov “Kadr sənədlərinin hazırlanması” mövzusunda çıxışında kadr sənədlərinin hazırlanması, şəxsi işlərin aparılması, şəxsi işlərə aid sənədlər, kadr anketlərinin düzgün doldurulması, əmək müqavilələrinin bağlanması şərtləri, məzuniyyətlərin verilməsinin rəsmiləşdirilməsi və uçotunun aparılması, keçirilən tədbirlərin qeydiyyat kitablarına işlənməsi qaydaları haqqında danışmışdır.

M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktor müavini Rahilə Məmmədova “Kitabxana işinin metodikası” mövzusunda çıxış edərək çap məhsullarının kitabxana fonduna daxil olması, uçot kitablarının işlənməsi, kitab fondunun hərəkət yekunları və inventar kitablarının doldurulması və işlənmə qaydaları haqqında danışmışdır. Eyni zamanda son illər kitabxana işində olan yeniliklər, iki və üçrəngli biblioqrafiyadan istifadə, kitabxana işçilərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi məsələləri də seminar iştirakçılarının diqqətinə çatdırılmışdır.

Seminarda sənədlərin işlənməsi qaydaları müvafiq slaydlar vasitəsilə əyani nümayiş etdirilmiş və iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

**Əli RZAYEV**

***Hörmətli oxucum, fotoşəkil və yazının adı sizə az-çox məlumat verdi. Bəli, xoşbəxt ailə, uzunömürlü ailə. İstədik, həmin ailənin qonağı olaq, uzunömürlü ailənin sirrini öyrənək, oxucumuza çatdıraq. Yazımız üçün seçdiyimiz qəhrəmanlar Səfərovlar ailəsidir. Bu ailənin təməli düz 55 il bundan əvvəl Kəngərli rayonunun Qarabağlar kəndində qoyulub. Ailə başçısı Kəngərli Rayon Ağsaqqallar Şurasının sədri Nahas Səfərovdur...***

# Xoşbəxt ailə



Üz tuturuq ziyalıları ilə öyünən Qarabağlar kəndinə. Elə kəndə çatana yaxın yol kənarında əlində qəzet olan bir nəfərə yaxınlaşırıq. Nahas müəllimin evini soruşuruq. Deyir ki, o da Nahas müəllimgilə gedir, qəzet aparır. Birlikdə yol alırıq Nahas müəllimin evinə. Qəzetdə Nahas müəllimin "Yeniləşən, gözəlləşən Kəngərli" adlı geniş məqaləsi çap olunub. Alıb baxıram. Bu sətirlər diqqətimi çəkir: "Bu gün təkcə şəhərlər deyil, kəndlərimiz də inkişaf edir, abadlaşır və müasir sima alır. Kənd yollarının abadlaşdırılması, asfalt döşənməsi, müasir kənd mərkəzlərinin, o cümlədən müxtəlif xidməti binaların istifadəyə verilməsi kənd əhalisi üçün yaradılan şəraitdən və göstərilən qayğıdan xəbər verir. Təsadüfi demirlər ki, mədəniyyət yoldan başlayır. Bəli, insanları, yerləri, yurdları bir-birilə birləşdirən yollardır. Yol nə qədər rahat olarsa, gediş-gəliş də o qədər yaxşı olar, əhalinin rifah halı yüksələr. Bu baxımdan rayonumuzun çoxsaylı yaşayış yerlərini bir-birinə bağlayan Qıvraq-Çalxanqala-Təzəkənd dairəvi yolu yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində aparılan uğurlu bir nailiyyətdir".

Bəli, Nahas müəllimin dediyi o yol bizi onun evinə rahatca çatdırır. Nahas müəllim nəvələrini başına toplayıb bizi gözləyirmiş. Çünki gəlişimizdən xəbəri var idi. Salamlaşıb içəri daxil oluruq.

Oxucularımızı intizarda qoymayıb bu uzunömürlü ailə haqqında qısa məlumat vermək istəyirəm. Nahas müəllim 1933-cü ildə Qarabağlar kəndində dünyaya göz açıb. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix ixtisasını bitirdikdən sonra öz doğma kəndinə qayıdaraq 60 ilə yaxın müəllim kimi fəaliyyət göstərib. Azərbaycan Respublikasının qabaqcıl maarif xadimi və SSRİ maarif əlaçısı adlarına layiq görülüb. Bir çox mötəbər tədbirlərə nümayəndə seçilib, muxtar respublikanın ictimai həyatında fəal iştirak edib. Nahas müəllim həm də gözəl qələm sahibidir. Onun mütəmadi olaraq dövri mətbuatda məqalələri çap olunur.

Səfərovlar ailəsini tanıyanlar deyirlər ki, bu ailə səmimi, mehriban, bir-birini duyan, bütün ailə əziyyətlərini birgə çiyinlərinə götürən, adət-ənənələrimizə sadiq qalan ailədir. Ailənin möhkəmliyini göstərən ən önəmli amillərdən biri də onların Vətən üçün yetişdirdiyi layiqli övladlardır. Nahas müəllim və Zəminə xanım 3 qız, 2 oğul tərbiyə edib, boya-başa çatdırıb. Hamısı da ali təhsillidir. Müxtəlif ixtisas sahibidirlər. Haliyədə hamısı dövlət təşkilatlarında çalışır.

Nahas müəllimlə çay süfrəsi arxasında söhbətə başlayırıq. Deyir ki, məndən tez-tez soruşurlar: 55 ildir ki, ailə qurmusunuz, aranızda da heç bir inciklik olmayıb. Bunun sirləri nədədir?

– Ailə haqqında resept vermək olmaz, tələm-tələsik söz vermək olmaz. Mən şəxsən ailə qurarkən atamla anamın ailəsini özümə nümunə götürmüşəm. Atamın məsləhəti ilə də evlənmişəm. 55 ildir ki, hər ikimiz verdiyimiz sözə xilaf çıxmamışıq. Etibar da müqəddəsdir, vəd də, söz də. Övladlarım da bu yolla ailə qurub. Məhəbbət, sevgi, eşq insana xas olan ən ülvi hislərdir. Ailə məhəbbəti elə bir qiymətli ləldir ki, onu nə almaq, nə də satmaq olar. O, dəyəri məlum olmayan bütöv bir dünyadır. Bu 55 illik ömür sirri hər iki tərəf arasında qarşılıqlı müqəddəslikdir. Hər ikimizi bir-birinə bağlayan incə, təmiz, ləkəsiz hisdir. Onun ölçüsü, müddəti, həddi, sərhədi yoxdur.

– Bəs nədir uzunömürlü ailənin sirri? Nahas müəllim ailənin uzunmüddətli xoşbəxtliyini nədə görür? suallarını o belə cavablandırır:

– Ailədə düzlük, doğruçuluq, səmimilik ön planda dayanmalıdır. Bir-birini duymaq, bir-birinə inam, sədaqət və ailədə dostluq da əsas şərtlərdəndir. Ailənin uzunmüddətli olması üçün, hər şeydən əvvəl, bu kiçik dövlətdə hamı bir-birinə hörmət etməli, hər kəs öz yerini bilməlidir. Dədə-babadan belə deyiblər ki, ən möhkəm pərdə yaxın adamlar arasında olmalıdır. Yəni çöldə-bayırda kimdənsə xoşun gəlməsə, ortaya narazılıq çıxsa, üzünü çevirib gedərsən, məsələ də bununla bitər. Ancaq ailədə kimdənsə üz çevirib getmək, küsmək nə asan işdir, nə də bu addımı atmaq olar. Ona görə də mən hər zaman ailə münasibətlərində qarşılıqlı hörmətin birinci yerdə durmasını istəmişəm. 55 illik ailənin belə yaşamasının səbəbi ailədə olan məhəbbətdir, birlikdə çəkilən əzab-əziyyətdir.

Deyirlər, ailəni möhkəm edən qadındır. Doğrudan da, belədir. Bu uzunömürlü ailədə Zəminə xanımın rolu danılmazdır. Üzündən xoş təbəssümü əskik olmayan Zəminə xanım belə hesab edir ki, onun həyatda ən böyük uğuru övladlarına verdiyi yüksək tərbiyədir. Əlavə edir:

– 55 ildə çox problemlərlə üzləşmişik. Ancaq öhdəsindən gəlməyi bacarmışıq. Aramızdakı hörməti sarsıtmamışıq. Ailədə qadın da, kişi də səbirli olmalıdır. Hər şeyi məhz səbirlə həll etmək lazımdır.

Söhbətimiz zamanı Nahas müəllim gənc ailələrə də məsləhətini verir:

– Ailə bir dövlətdir, bir cəmiyyətdir. Bizim hər birimiz o dövlətin vətəndaşları, cəmiyyətin üzvləriyik. Bugünkü gənclərimiz bu həqiqəti dərindən dərk etməlidirlər. Ancaq bu halda ailə uzunömürlü ola bilər. Gənc ailələrə məsləhətim odur ki, ailəyə qarşı səmimi və hörmətlə yanaşsınlar. Ailənin uzun müddət yaşaması üçün qarşıya çıxan bütün əziyyətlərə dözsünlər. Valideynlər övladlarına düzgün tərbiyə versinlər. Çünki normal ailədə böyümüş, düzgün tərbiyə, təhsil almış gəncin qurduğu ailə də möhkəm olur. Bundan başqa, mütləq təhsilə böyük önəm vermək lazımdır. Mən dövrün çətinliklərinə baxmayaraq, övladlarımın hamısını oxutmuşam. Amma indi Allaha şükür, demək olar ki, təhsil almaq heç də çətin deyil. İndi uşaq oxutmağa nə var ki!

Nahas müəllim, sözün həqiqi mənasında, ziyalıdır. O, bir ziyalı kimi, kəndinin keçmişini və bu gününü müqayisə edir və qəlbi dağa dönür:

– Təqaüddə olsam da, mətbuatla yaxından əməkdaşlıq edirəm. Çünki ürəyim doludur. Biz gördüyümüz çətinlikləri övladlarımız görmür. Baxın, evimizin qarşısında müasir məktəb binası, bir az aralıda kənd mərkəzi, həkim ambulatoriyası. Kəndli torpağın əsl sahibidir. Bütün bunları görəndə ilhama gəlirəm. İndi muxtar respublikamızda ailələrin rifah halı günü-gündən yaxşılaşır. Bu da ailələrin uzunömürlü olmağına öz təsirini göstərir. Bütün bunlar doğma diyarımızda yaradılan sabitlik hesabınadır. Bu gün təkcə gənc ailələrə deyil, bizim kimi uzunömürlü ailələrə də xüsusi diqqət göstərilir. Belə ailələrin yubileylərinin qeyd olunması yubilyarların yaddaşlarında silinməyən xoş izlər buraxır.

Söhbətimiz yavaş-yavaş sona yetməkdədir. Nahas müəllimin həyətini gəzməyə çıxırıq. Ailənin zəhməti hesabına başa gəlmiş gözəl bağ qəlbimizi oxşayır. Bizə meyvələrdən pay hazırlamaq istəyirlər. Razılaşmırıq. Hərəkətimizin Zəminə xanıma toxunduğunu hiss edirəm. Sözünü yerə salmırıq. Bir saatlıq-saatyarımlıq səmimi söhbətin təəssüratlarını hələ də yaşayırıq. Azərbaycan qadınına məxsus olan bütün müsbət keyfiyyətləri özündə cəmləşdirən bu qadının sözünü yerə salmaq istəmirik. O da bunu hiss edir. Və üzünə təbəssüm qonur. 55 illik ömür-gün yoldaşı ilə birlikdə bizi qapıya qədər yola salır. Ayrılarkən dediyi sözləri olduğu kimi oxucularımıza çatdırıram: Xoşbəxtliyin açarı hər kəsin öz əlindədir. Çalışın ki, o açardan düzgün istifadə edəsiniz. Bu yerdə Nahas müəllim gülür, əlavə edir:

– *Bizim kimi...*

✍ **Sara ƏZİMOVA**

---

Yurdumuzun nemətləri

# Qarpız kəsdim bal kimi...

*Muxtar respublikamızda elan olunmuş "Kənd təsərrüfatı ili"ndə bostan məhsulları bolluğudur. Torpaq mülkiyyətçiləri üçün yaradılmış şərait öz bəhrəsini verir. Bazar və yarmarkalarda, ticarət şəbəkələrində, yol kənarlarında qovun-qarpız həm alıcı üçün, həm də satıcı üçün əlverişli qiymətə satılır. Alan da razıdır, satan da.*

*Bununla yanaşı, unutmaq olmaz ki, bostan məhsulları ilə düzgün qidalanma sağlamlığın başlıca şərtidir. Bu sahədə əhalinin maarifləndirilməsinin zərurətini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin həkimi Abbas Əliyevlə həmsöhbət olduq:*

***– Abbas həkim, indi yay süfrəsini qarpızsız təsəvvür etmək olmur. Düzgün qidalanmada qarpızın rolu nədən ibarətdir?***

– Yay aylarının ən çox istifadə edilən giləmeyvələrindən olan qarpız su (çəkinin 80 faizinə qədər), fruktoza, saxaroza, mikroelementlər və təbii sellülozdan ibarətdir. Fruktoza qlükozadan fərqli olaraq, hətta şəkərli diabet xəstəliyindən əziyyət çəkən insanlara heç bir mənfi təsir etmir.

Xalq təbabətində, yazılı və şifahi ədəbiyyatda qarpızın faydaları haqqında kifayət qədər məlumata rast gəlinir. Məsələn, dahi Azərbaycan şairi Məhəmməd Füzulinin "Meyvələrin söhbəti" poemasında qarpızın xeyirli cəhətləri belə ifadə olunur:

*Mən sinələrə səfa verirəm,*
*Mən didələrə cila verirəm,*
*Səfravü hərarətə dəvayəm,*
*Baş ağrısına əcəb şəfayəm.*
*Xoş təm ləziz, rəngim əhmər,*
*Suyum dəxi çün zülali-Kövsər.*
*Bimarlara dəva mənəm, mən.*
*Həm xəstələrə şəfa mənəm, mən.*

Bu sətirlər xalq təbabətində qarpızla bağlı fikirlərə uyğun gəlir. Müasir elm də Füzulinin misralarındakı müddəaları təsdiqləyir. Qarpız insan orqanizmini daxildən, sözün tam mənasında, "yuyur" və bu səbəbdən ürək, damar və oynaq xəstəliklərindən əziyyət çəkən insanlara çox faydalıdır.

Qarpız şirəsi qaraciyərə orqanizmdən toksinləri yuyub aparmaq üçün kömək edir. Onun tumları bağırsaqları qurdlardan təmizləyir. Tərkibində maqnezium mikroelementinin miqdarına görə qarpız badamdan sonra ikinci yer tutur. Qidada maqneziumun xroniki çatışmazlığı təzyiqin artmasına gətirib çıxarır. Bundan əlavə, maqnezium böyrəklərdə daşların əmələ gəlməsinin qarşısını alır, bağırsaqların fəaliyyətini yaxşılaşdırır, qanda xolesterinin səviyyəsini azaltmağa kömək edir və ödqovucu təsirə malikdir. Maqneziumdan əlavə, qarpız kalium elementi ilə də zəngindir. Kalium ürəyin normal fəaliyyəti üçün çox vacibdir.



Qarpızda dəmir mikroelementi də vardır. Bu səbəbdən qarpız qanazlığından əziyyət çəkən insanlara yaxşı kömək edir. Arıqlamaq istəyənlər qarpız yeyə bilərlər. Qarpızda kalorinin az olmasına baxmayaraq, o, tez bir zamanda insanda toxluq hissi yaradır.

***– Qarpız həm də damarları aterosklerozdan qoruyur.***

– Alimlər qarpızın yeni, əvvəllər məlum olmayan xassəsini aşkara çıxarıblar. ABŞ-da aparılan tədqiqatlar göstərir ki, qarpız aterosklerozun (ürək-damar sistemi xəstəliyi) inkişaf riskini azaldır. Bu, arteriyaların divarlarının bərkiməsi və onların elastikliyinin itməsinin xarakterik olduğu və sonradan orqanların qanla təchiz olunmasının pozulduğu xroniki xəstəlikdir. Kentukki Universitetinin alimləri siçanlar üzərində tədqiqat aparıblar. Onlar yüksək tərkibli xolesterinli xüsusi pəhrizə məruz qalıblar. Bununla yanaşı, siçanların bir qrupuna içmək üçün qarpız şirəsi, digərlərinə isə adi su verilib. Səkkiz həftədən sonra alimlər siçanların çəkisini ölçərək alınan nəticələri müqayisə ediblər. Məlum olub ki, qarpız şirəsi içən siçanlar su içənlərdən daha az çəkiyə malikdirlər. Qarpız suyu piy kütləsinin azalmasına səbəb olub. Bununla yanaşı, onlarda əzələ kütləsi azalmayıb, qanın plazmasında xolesterinin konsentrasiyası xeyli az olub. Gəmiricilərin damarlarının müayinəsi göstərib ki, onlarda aterosklerotik zədələnmə digər qrupdakılardan xeyli azdır.

***– Xeyirli cəhətlərinə baxmayaraq, qarpızın həddindən artıq yeyilməsi xoşagələn nəticələr vermir. Bir xalq mahnısında deyildiyi kimi, "Qarpız kəsdim, yeyən yox, vallah dərdimi bilən yox".***

– Həqiqətən də, düzgün seçilməmiş qarpız insanın səhhəti üçün təhlükəli ola bilər. Bunun səbəbi isə ondan ibarətdir ki, qarpız yetişdirilməsi zamanı tez-tez nitrat tərkibli gübrələrdən istifadə olunur. Bu nitratlar insanların, xüsusən də uşaqların orqanizmi üçün təhlükəlidir. Genetik modifikasiyaya uğramış qovun-qarpızın xeyrindən çox zərəri vardır. Daxili bazarın belə məhsullardan qorunması əhalinin sağlamlığının qorunması istiqamətində dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bunun nəticəsidir ki, mövsümün qaynar çağı olsa da, bostan-tərəvəz məhsullarından zəhərlənmə hadisəsinə görə bizim mərkəzə müraciət edən yoxdur.

Qarpızdan lazımi qədər istifadə edilməsi məsləhətdir. "Xeyirdir", – deyə həddindən artıq qəbul etmək olmaz. Bu, iri böyrəkdaşı olan xəstələrdə narahatlığa gətirib çıxarır. Qarpızı çox vaxt yeməkdən sonra qəbul edirik. Bu, düzgün deyil. Yeməkdən dərhal sonra yeyilən qarpız köp əmələ gətirir. Xeyirli xüsusiyyətlərinin daha çox hiss olunması üçün qarpızı, əsasən, acqarına yemək məsləhətdir. Ona görə də onu yeməkdən ya çox əvvəl, ya da çox sonra qəbul etmək lazımdır.

***– Ekoloji cəhətdən saf, orqanizm üçün faydalı qarpız seçmək üçün nələri bilmək lazımdır?***

*– Bunun üçün bizim məsləhətlərimizdən istifadə edə bilərsiniz:*

*-qarpızı iyunda-iyulda yox, avqust-sentyabr aylarında almaq lazımdır;*

*-yaxşı qarpız gün şüalarının altında parıldayır;*

*-qarpızın üzərində çatlar və əzilmiş yerlər olmamalıdır. Bu zədələnmiş yerlərdən qarpıza təhlükəli mikroblar daxil ola bilər və bu mikroblar insanlarda kəskin bağırsaq infeksiyaları törədə bilər;*

*-qarpız alanda heç bir halda onu kəsdirməyin;*

*-qarpızın "quyruğu" sarı və bir qədər qurumuş olmalıdır, lakin tam quru olmamalıdır. "Quyruğu" olmayan qarpız almayın;*

*-qarpızın üzərində sarı ləkənin olması onu sübut edir ki, qarpız tam və təbii qaydalara uyğun yetişib. Əgər belə ləkə çox yekə olarsa, deməli, bu qarpıza gün şüaları çatmayıb və bunun dadı da yaxşı olmayacaqdır;*

*-qarpızı seçəndə orta ölçüyə (5-7 kiloqram) üstünlük verin;*

*-qarpızı evə gətirdikdən sonra suya salın. Yaxşı dəymiş qarpız suyun üzərində üzəcək, dəyməmiş isə batacaq;*

*-qarpızı yeməkdən əvvəl yaxşı yumaq, qaynanmış su ilə yaxalamaq lazımdır.*

**Nuş olsun!**

**Hüseyn ƏSGƏROV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 613